# Azərbaycan beynəlxalq kitab sərgi-yarmarkasında təmsil olunacaq

Sentyabrın 2-dən 6-dək Rusiyada XXVIII Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək. Tədbirdə ölkəmizi Mədəniyyət və Turizm Nazirliyi təmsil edəcək.

Sərgi çərçivəsində beynəlxalq "Kitab sənəti" müsabiqəsində qalib gəlmiş Azərbaycan kitablarının mükafatlandırılması nəzərdə tutulub.

Qeyd edək ki, Moskva Kitab Sərgi-Yarmarkası nəşriyyat və informasiya sahəsində xarici tərəfdaşlarla əlaqələrin qurulması, Azərbaycanın zəngin mədəniyyətinin və sürətli inkişafının, Qarabağ həqiqətlərinin təbliğ olunması baxımından mühüm əhəmiyyət daşıyır.